Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Rəyasət Heyətinin Sədri

cənab Anar Bağırova

Ünvan: Bakı şəhəri, Ceyhun Hacıbəyli küçəsi 100

Mingəçevir şəhəri, Nizami prospekti ev 6, mənzil 24 da qeydiyyatda olmaqla yaşayan Məmmədova Günel Vəkil qızı tərəfindən

# TƏŞƏKKÜR MƏKTUBU

**Hörmətli Anar müəllim,**

Bildirirəm ki, 11.12.2023-cü il tarixində mənə qarşı dələduzluq edilərək 235500 (iki yüz otuz beş min beş yüz) manat pul vəsaitimin ələ keçirilməsi ilə əlaqədar hüquqi yardım almaqdan ötrü Bakı şəhəri 20 saylı Vəkil Bürosunun vəkili Gülməmməd Səfərova müraciət etdim. Gülməmməd Səfərov ilə aramızda müqavilə bağlandı və o dərhal qeyd edilən faktla bağlı mənə yüksək səviyyədə xidmət göstərilməsi məqsədilə Azərbaycan Respublikası Baş Prokurorluğuna, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinə ərizə ilə müraciət edərək həmin fakt üzrə 09 yanvar 2024-cü il tarixində cinayət işinin başlanmasına nail oldu. Daha sonra isə qanuna uyğun olaraq mənə qarşı dələduzluq etmiş şəxs barəsində qiyabi həbs seçildi və o Beynəlxalq Axtarışa verildi. Həmçinin mən cinayət işi üzrə zərərçəkmiş şəxs kimi tanındım. Bundan sonra vəkilim Gülməmməd Səfərov qeyd edilən şəxsin tapılması ilə əlaqədar işlərin sürətləndirilməsi üçün mənimlə bərabər 3 dəfə İnterpolun Milli Mərkəzi Bürosunun rəhbərinin qəbulunda oldu. Daha sonra vəkilim Gülməmməd Səfərovun istiqamətləndirməsi ilə mən 3 dəfə Azərbaycan Respublikası Baş Prokurorunun, 2 dəfə isə Azərbaycan Respublikası Daxili İşlər Nazirinin vətəndaş qəbulunda oldum. Bütün bunların nəticəsi olaraq barəsində beynəlxalq axtarış elan edilmiş şəxs tutulmamasına baxmayaraq ailəsi tərəfindən mənə dəymiş maddi ziyan 17.10.2024-cü il tarixində tam şəkildə ödənildi.

Vəkillər Kollegiyasının
Rəyasət Heyəti
Daxil olma № 4178
« 01 » 11 2024 il